


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 61 (21.471)

6 aprel 2016-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika

Aprelin 5-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Zakir Həsənov bildirib ki, cəbhənin təmas xəttində ermənilərin təxribatının qarşısını alarkən qəhrəmanlıqla döyüşən və yaralanan hərbçilərin bir hissəsi müalicə olunmaq üçün bu hərbi hospitala gətirilib. Hazırda onların müalicəsi istiqamətində zəruri tədbirlər görülür. Hospitalın tibb heyəti onların tezliklə sağlamlıqlarına qovuşmaları üçün gecə-gündüz əllərindən gələni edirlər.

Dövlətimizin başçısı cəbhənin təmas xəttində gedən döyüşlərdə yaralanan hərbçilərlə görüşüb.

Sonra dövlətimizin başçısı şəhid ailələrinin və yaralıların yaxınlarının bir qrupu ilə görüşüb.

Sonda xatirə şəkli çəkdirilib.



## Əhalinin məşğulluğu diqqət mərkəzindədir

### Növbəti əmək yarmarkalarına aprelin 15-də başlanılacaq

***Əmək ehtiyatlarından daha səmərəli istifadə edərək əhalinin məşğulluğunu təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın uğurla başa çatmasının nəticəsidir ki, həmin dövrdə yüzlərlə insan özünə yeni iş yeri tapıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın qəbul olunması bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, dövlət proqramından irəli gələn vəzifələri yerinə yetirmək üçün cari ilin ilk 3 ayı ərzində işaxtaran vətəndaşların münasib işlə təmin olunması məqsədilə aktiv məşğulluq tədbirləri davam etdirilib. Belə ki, 536 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə, sosial müdafiəyə ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən 15 nəfər kvota yerlərinə göndərilib, 8 nəfər haqqıödənilən ictimai işə, ümumilikdə, 119 nəfər isə müvafiq peşə kurslarına cəlb olunub. İşlə təmin edilənlərdən 31-i məhdud fiziki imkanlı şəxs, 2-si cəzaçəkmə müəssisəsindən azad edilən, 5-i isə hərbi xidmətdən tərxis olunan vətəndaşlardır.

Məlumatda o da bildirilir ki, kəndlərdə yeni xidmət mərkəzlərinin istifadəyə verilməsi də məşğulluq problemlərinin həllində mühüm rol oynayır. Qeyd olunan dövr ərzində 31 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 3 nəfər xidmət mərkəzlərində müvafiq işlə təmin olunub.

Naxçıvan Regional Peşə-Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq təşkil olunan kurslara 119 nəfər, o cümlədən sağlamlıq imkanları məhdud 18 nəfər, hərbi xidmətdən tərxis olunan 4 nəfər cəlb edilib. Hazırda xalq tətbiqi sənəti növü üzrə xalçaçı və Penitensiar Xidmətin cəzaçəkmə müəssisəsində cəza çəkməkdən azad olunacaq şəxslərin sosial reabilitasiyası məqsədilə daşduz üzərində oyma üzrə yeni kurslara başlanılıb.

"Ənənəni qoruyaq, evdə xalça toxuyaq" adlı sosialyönümlü haqqıödənilən ictimai işin təşkili də davam etdirilir. Belə ki, evdə müvafiq ölçüdə xalçaların toxunması üçün Şərur, Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında və Naxçıvan şəhərində, ümumilikdə, 11 nəfər xalça toxuyanla əmək müqaviləsi bağlanılıb, onlar lazımi avadanlıq və alətlərlə, həmçinin materialla təmin ediliblər.

Məlumatda o da bildirilir ki, növbəti əmək yarmarkalarına aprelin 15-də start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. Aprel ayının 19-da Kəngərli Rayon Məşğulluq Mərkəzində bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Aprelin 20-də keçiriləcək əmək yarmarkasının ünvanı Şahbuz şəhərindəki "Araz" kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından aprel ayının 21-də yararlana biləcəklər. Aprel ayının 22-də ordubadlılara, 26-da babəklilərə, 27-də isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası aprel ayının 28-də "Gənclik" Mərkəzində keçiriləcək.

## Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir

Bu il mart ayının 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində muxtar respublikada turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə müxtəlif dövlət orqanları qarşısında mühüm vəzifələr qoyulub. Müşavirədə qeyd olunub ki, muxtar respublikada digər sahələr kimi, turizm sahibkarlığı da inkişaf etdirilməlidir. Özəl sektor bu sahədə xüsusilə təşəbbüskar olmalı, real təkliflər ortaya qoyulmalıdır. Turizmin inkişafı turistlərin təhlükəsizliyinin qorunması məsələsini də aktuallaşdırır. Bu sahədə də aidiyyəti dövlət orqanları fəaliyyətlərini gücləndirməli, onlarla işin təşkilinə diqqəti artırmalıdırlar. Aidiyyəti dövlət orqanları turistlərin gediş-gəlişi zamanı rəsmiləşdirmə qaydalarına düzgün riayət etməli, turistlərə heç bir manеə yaradılmamalıdır.



Qarşıya qoyulan vəzifələrin icrası istiqamətində müxtəlif tədbirlər keçirilir. Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində muxtar respublikada fəaliyyət göstərən mehmanxana subyektlərinin nümayəndələri ilə keçirilən görüş də həmin tədbirlərdən biridir.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov açaraq mehmanxanaların muxtar respublikaya turist cəlbində mühüm rol oynadığını qeyd edib.

Bildirilib ki, bugünkü tədbirin keçirilməsində də məqsəd mehmanxanaların miqrasiya xidmətinin elektron resurslarından maksimum şəkildə yararlanmasına şərait yaratmaq, mehmanxana əməkdaşlarını bu sahədə maarifləndirməkdir.

Görüşdə Miqrasiya proseslərinin təhlili və informasiya təminatı şöbəsinin rəisi Aysel Əliyeva iştirakçıları elektron xidmətin həyata keçirilməsinin inzibati prosedurunu müəyyənləşdirən texniki normativ-hüquqi aktlarla tanış edib. O bildirib ki, hazırda ölkəmizdə, eyni zamanda muxtar respublikada turizmin inkişaf etdirilməsi əsas məsələlərdəndir. Buna görə də muxtar respublikaya gələn turistlərin qeydiyyata alınma prosedurlarına düzgün riayət olunmalı, manеələr aradan qaldırılmalıdır.

Vurğulanıb ki, muxtar respublikanın bugünkü sabitliyi, təhlükəsizliyi buraya səfər edən turistlərin sayının artmasına səbəb olub. Bu sahədə Dövlət Miqrasiya Xidməti də fəaliyyətini gücləndirib və turistlərlə işin təşkilinə diqqəti artırıb. Muxtar respublikaya gələn hər bir əcnəbinin və vətəndaşlığı olmayan şəxsin qəbulu və qeydiyyatının aparılması sadələşdirilib. Miqrantların rahatlığının təmin edilməsi məqsədilə sərhəd-buraxılış məntəqələrinin miqrasiya bölmələrində qeydiyyat sadələşmiş formada aparılır. Eyni zamanda muxtar respublika ərazisində fəaliyyət göstərən mehmanxanalarla Dövlət Miqrasiya Xidməti arasında yaradılmış "Elektron hökumət portalı" üzərindən aparılan elektron sənəd dövriyyəsinin də ölkəyə gələn əcnəbilərin qeydiyyata alınmasında böyük rolu var.

Bildirilib ki, bu gün Dövlət Miqrasiya Xidməti ilə mehmanxanalar arasında elektron sənəd dövriyyəsi rolunu oynayan elektron xidmətlərin təkmilləşdirilməsi, elektron xidmətlərdən istifadə imkanının artırılması üçün vətəndaşların "Elektron hökumət" üzrə məlumatlılıq səviyyəsinin yüksəldilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir.

Sonra xidmətin əməkdaşlarından Zakir Məmmədovun və Qiyas Paşayevin çıxışları olub.

## Taksi xidməti ilə məşğul olanlar üçün muzeylərdə seminar-məlumatlandırma işinin təşkilinə başlanılıb

*Dünən muxtar respublikada taksi xidməti ilə məşğul olan sürücülər üçün muzeylərdə seminar-məlumatlandırma işinə başlanılıb.*

Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin aparat rəhbəri Anar Babayev çıxış edib. Bildirilib ki, muxtar respublikamızın ən ucqar dağ kəndlərinə belə, rahat asfalt yollar salınıb, rayon mərkəzlərində yeni avtovağzallar tikilib istifadəyə verilib. Yol-nəqliyyat infrastrukturunun yenilənməsi, bu sahədə həyata keçirilən müxtəlif tədbirlər avtomobil nəqliyyatı ilə sərnişin və yük daşınmalarının müasir tələblər səviyyəsində qurulmasına əlverişli şərait yaradıb.

Qeyd olunub ki, 2016-cı il mart ayının 18-də Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilmiş müşavirədə Nəqliyyat Nazirliyinə də müvafiq tapşırıqlar verilib, nəqliyyat xidmətinin yüksək səviyyədə təmin edilməsi, nəqliyyat vasitələrinin tam nəzarətdə saxlanılması bir vəzifə kimi qarşıya qoyulub.





Turistin bir şəhər və yaxud bölgə ilə tanışlığı çox vaxt nəqliyyat vasitələri ilə səyahətdən başlanır. Sürücülərin davranışları, verdikləri məlumatlar turistlər üçün ilk təəssürat qaynaqlarıdır. Sürücülərin də yaşadıqları ərazinin tarixi, məişəti, təbiəti, mədəni ünvanları ilə bağlı ümumi biliklərə malik olması nəzərə alınaraq Mədəniyyət və Turizm Nazirliyi Nəqliyyat Nazirliyi ilə birgə taksi xidməti ilə məşğul olanlar üçün muzeylərdə seminar-məlumatlandırma işinin təşkilinə başlayır.

Taksi fəaliyyəti göstərən nəqliyyat vasitələrinin sürücüləri üçün muzey günlərinin qrafiki tərtib olunub və sürücülərin muzeylərlə tanışlığı diqqət mərkəzində saxlanılacaq. Bununla əlaqədar taksi sürücüləri ilə bağlanan müqavilədə əsas diqqət sürücülərin həmin taksinin fəaliyyət göstərdiyi ərazidəki tarixi-memarlıq abidələrini, muzeyləri tanıması, onlar haqqında ətraflı bilgiyə malik olmasına yönəldiləcək.

Vurğulanıb ki, son illər bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib, avtomobil yolları yenilənib, beynəlxalq əməkdaşlığın inkişafına diqqət artırılıb, qonşu ölkələrlə əlaqələrin möhkəmləndirilməsi turizmin inkişafı üçün əlverişli şərait yaradıb. Belə ki, Türkiyə Respublikasının əksər böyük şəhərlərinə (İstanbul, Ankara, Bursa, Trabzon, İzmir və sair) beynəlxalq sərnişindaşıma xidməti göstərən marşrutlar açılıb. Həmçinin Naxçıvan-Təbriz-Tehran, Naxçıvan-Urmiya və əks istiqamətdə marşrutların fəaliyyət göstərməsi üçün müqavilələr imzalanıb. Naxçıvan-Batumi-Naxçıvan marşrutu isə muxtar respublikada turizmin daha da inkişafına səbəb olacaq.

"Qədim tarixi və zəngin mədəniyyəti ilə seçilən oğuz-türk yurdu Naxçıvan bu diyara ayaq basan turisti heyrətləndirəcək abidələrlə zəngindir. Hər bir muxtar respublika sakini, o cümlədən taksi xidməti göstərən sürücülər bu işə məsuliyyətlə yanaşmalıdır", – deyən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Piri Nağıyev qədim diyarımızın ayrı-ayrı turizm marşrutları və tarixi abidələri haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonra seminar-məlumatlandırma işi taksi xidməti ilə məşğul olan sürücülərin və Dövlət Yol Polisi əməkdaşlarının iştirakı ilə Naxçıvan Dövlət Tarix Muzeyində davam etdirilib.

İki gün davam edəcək tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**



# Əlahiddə Ümumqoşun Ordusu istənilən hərbi əməliyyatı yerinə yetirməyə tam hazırdır

## *Düşmənlə sərhəddə mövqe tutan əsgərlərimiz yüksək əhval-ruhiyyədədir*

***Son günlər Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar cəmiyyətimizdə böyük ruh yüksəkliyi yaradıb. Erməni ordusunun müntəzəm olaraq atəşkəsi pozmasına və dinc əhalini hədəf almasına cavab olaraq həyata keçirilən həmin hərbi əməliyyatlar bir daha Azərbaycan Ordusunun gücünü bütün dünyaya nümayiş etdirdi.***

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:** ***Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır.***

Ötən günlərdə cəbhədə qanlı döyüşlərin getdiyi bir vaxtda düşmən Ermənistan ilə 240 kilometr sərhədi olan blokada vəziyyətindəki Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyi məsələsi bir daha aktuallaşdı. Belə bir vəziyyətdə düşmənə xəbərdarlığımız isə Azərbaycan Silahlı Qüvvələrinin ən böyük hərbi kontingentinin – Əlahiddə Ümumqoşun Ordusunun muxtar respublikada yerləşməsidir. Qədim diyarımıza ehtimal olunacaq istənilən hücumu ən müasir



döyüş silahları ilə dəf etmək gücünə malik Əlahiddə Ümumqoşun Ordusu çoxminlik şəxsi heyəti ilə düşməni nəinki yerindəcə məhv etmək qabiliyyətinə malikdir, hətta əks-hücuma keçərək onların bütün strateji məntəqələrini darmadağın etmək iqtidarındadır. Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev də Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının yüksək səviyyədə olduğunu bildirərək deyib: ***“Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji yerdə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır”.***

Bu günlərdə Əlahiddə Ümumqoşun Ordusunun regionun ən strateji nöqtələrindən biri olan Sədərək rayonu ərazisindəki döyüş postlarında müşahidə apardığımız zaman bir daha ordumuzun müdafiə potensialının, döyüş hazırlığının ən yüksək səviyyədə olduğuna şahidlik etdik. Belə ki, ötən əsrin 90-cı illərində Naxçıvanın müdafiəsində öz sözünü demiş bu strateji məntəqə bu gün də igid, qəhrəman əsgərlərimiz tərəfindən göz bəbəyi kimi qorunur. Burada xidmətin günün tələbləri səviyyəsində təşkili üçün hər cür şərait yaradılıb, maddi-texniki baza tələb olunan səviyyədə möhkəmləndirilib. Həyata keçirilən kompleks tədbirlər hərbçilərin döyüş qabiliyyətinin və mənəvi-psixoloji səviyyəsinin yüksəlməsinə səbəb olub.

Sədərək rayonunda yerləşən ön xəttə qalxarkən heyrətlənməmək olmur. Burada əlaqə yoluna daşlardan pillələr inşa edilib, hərbi hissənin istehkamçıları sədd və səngərlərimizi daşla, betonla hörərək bərkidiblər. Daha nə yağış, nə də qar torpağı aşındıra bilər.

Onu da öyrəndik ki, sərhəd boyu sakitlikdir. Ölkənin digər təmas xətlərindən fərqli olaraq, bu mövqelərimizdə atəşkəsin pozulması hallarına rast gəlinməyib. Ancaq yenə də burada gördüklərim əsl cəbhə həyatını xatırladır: bütün çətinlikləri, mövcud intizamı özünəməxsus rejimi ilə, eyni zamanda dözümlü, mətin döyüşçüləri ilə insanda dolğun təəssürat yaradır. Baxışlarında qığılcım parlayan bu oğullarla torpaqlarımızı nəinki müdafiə etmək olar, hətta lazım gələrsə, çox-çox irəliyə də getmək mümkündür. Burada olarkən səngərdə görüşüb söhbət etdiyimiz əsgərlər də Ali Baş Komandanın hücum əmrini həmişə gözlədiklərini qeyd etdilər.

Hərbi hissənin qarşısında bizi baş leytenant Seymur Manzanov qarşıladı. Əyinlərindəki zirehli gödəkçə, başlarında dəbilqə, yaraqlı-yasaqlı bir neçə əsgər də sırada dayanmışdı. Məlum oldu ki, onlar postlardakı silahdaşlarını dəyişməyə getməlidirlər.

– Son günlərdə qüdrətli ordumuzun işğal altındakı ərazilərdə uğurlu hərbi əməliyyatlar aparması əsgərlərimizdə və zabitlərimizdə yüksək döyüş əhval-ruhiyyəsi yaradıb, – deyən baş leytenant Seymur Manzanov bizimlə söhbətində onu da qeyd etdi ki, Azərbaycanın alınmaz qalası ad-











landırılan Sədərəkdə bu gün tam sakitlikdir: – Ancaq biz bilirik ki, ermənilər strateji əhəmiyyətə malik olan Sədərəyi həmişə hədəf seçə bilərlər. Çünki xain düşmən hər an təxribatlara əl ata bilər. Ona görə də biz həmişə döyüş növbəsində ayıq-sayıq dayanır, qarşı tərəfi daim nəzarətdə saxlayır, bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Yüksək döyüş hazırlığına malik əsgərlərimiz də, silah-sursatımız da kifayət qədər vardır. İstənilən anda düşmənin təxribatlarına ən layiqli şəkildə cavab verməyə hazırıq.

Seymur Manzanov onu da dedi ki, burada ölkəmizin müxtəlif bölgələrindən hərbi xidmətə çağırılanlar vardır. Onlar bir-birlərini yaxından tanıyıblar, dostlaşıb-qardaşlaşıblar, bir-birinə arxa-dayaq olublar.

Əsgər Elnur Qasımovla söhbətimiz zamanı o, komandirinin söylədiklərini təsdiqləyərək deyir:

– Biz hərbi xidmətdə olan əsgərlər anlayırıq ki, bizim gücümüz birliyimizdədir. Ona görə də çiyin-çiyinə verib hərbi xidmətimizi uğurla aparırıq. Döyüş növbəsində ayıq-sayıq dayanırıq. Bizim əhval-ruhiyyəmiz çox yüksəkdir. Çünki son günlər ordumuz çox böyük uğurlara imza atıb. Mən Ağdam rayonunun Quzanlı qəsəbəsindənəm. Bizə məlumdur ki, ordumuz artıq müxtəlif istiqamətlərdə, o cümlədən Ağdamın işğal altında qalan ərazilərində böyük irəliləyişlərə nail olub. Bu, məni və əsgər yoldaşlarımı hədsiz dərəcədə sevindirir. Arzulayırıq ki, Ali Baş Komandanımız əmr versin, biz Sədərəkdə xidmət edən əsgərlər muxtar respublikanın işğal altında olan Kərki kəndini xilas edək və düşmənə sarsıdıcı zərbələr endirək.

Əsgər Rasim Əhədov isə Bakı şəhərindəndir. Nizam-intizamı, məsuliyyəti ilə seçilən Rasim deyir ki, biz hərbi xidmətə gələndən sonra silahla rəftar və döyüş qaydalarını öyrəndik. Bir müddətdən sonra komandirlərimiz döyüş növbəsi aparmağa icazə verdilər:

– Sözün açığı, döyüş növbəsində olmaq həmişə mənə böyük qürur bəxş edir. Çünki mən Vətənin keşiyində dayanıram. Azərbaycanın hər bir bölgəsi mənim üçün əzizdir. Mən fəxr edirəm ki, bu gün ulu öndərimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Naxçıvan diyarının keşiyində dayanmışam.

Naxçıvan şəhərindən olan əsgər Bəhlul Mirzəyev isə deyir: – Əsgər yoldaşım kimi mən də Vətənə xidmət etdiyim üçün qürur hissi keçirirəm. Düşmən bizim məğrur duruşumuzu görür və Vətənin keşiyində necə ləyaqətlə dayandığımızı hər addımda hiss edir. Daha doğrusu, biz ayıq-sayıqlığımızla onlara bunu hiss etdiririk, düşmənə, necə deyərlər, göz açmağa imkan vermirik. Hər şeyi nəzarətdə saxlayırıq. Ordumuzun qazandığı uğurlar bizi daha da ruhlandırır. Düşmənin istənilən təxribatının qarşısını almağa tam hazırıq.

Ordubad rayonundan olan əsgər Nicat Təvəkkülzadə deyir ki, bu yerlər artıq 26 ildir, döyüş bölgəsi adlandırılır. Vaxtilə burada qanlı döyüşlər gedib, tez-tez atışma olub. Bu gün isə ermənilər buna cəsarət edə bilmirlər. Çünki onlar hər dəfə layiqli cavablarını alırlar və susmaqdan başqa çarələri qalmır:

– Biz düşmənin başını qaldırmasına imkan vermirik. Müşahidələrimə əsasən deyə bilərəm ki, bu gün düşmən qorxu içərisindədir. Çünki onlar bizim gücümüzə artıq bələddirlər. Bilirlər ki, bir an içərisində onları məhv edə bilərik.

Kiçik çavuş Məmmədbağır Əliyev Kəngərli rayonundandır. O da mehriban kollektivdə qaynayıb-qarışıb, manqa komandiri kimi mahir döyüşçüyə çevrilib. O deyir:

– Mən minaatan batareyasında xidmət edirəm. Biz istənilən vaxt istənilən düşmən hədəfini məhv edə bilərik. Keçdiyimiz hərbi təlimlərdə mən və xidmət yoldaşlarım döyüşün bütün sirlərinə yiyələnmişik. Bununla bərabər, biz burada valideynlərimizin, eyni zamanda Vətənimizin dəyərini daha yaxşı anlayırıq. Məsuliyyətin nə olduğunu bilirik. Bilirik ki, əgər biz döyüş növbəsində ayıq-sayıq dayanmasaq, düşmən müxtəlif təxribatlar törədə bilər. Ona görə də Vətənimizin keşiyində mətanətlə dayanmışıq və düşmənə heç vaxt imkan verməmərik ki, hər hansı təxribat törətsin.

Sumqayıt şəhərindən hərbi xidmətə gələn əsgər Aydın Nəcəfov:

– Mən əslən Qərbi Azərbaycanın Sisian rayonunun Şəki kəndindənəm. Hər dəfə döyüş növbəsində dayananda həsrətlə Vətən torpaqlarına baxıram. Mənim dayandığım bu qədim diyarın ərazisi əvvəllər daha da böyük olub. Hətta vaxtilə Qarakilsə adlanan Sisian rayonunu da əhatə edib. Əminəm ki, nə vaxtsa biz ata-baba yurdumuza qayıdacağıq. Bizi o torpaqlardan qovan düşmənimizə qarşı böyük nifrət bəsləyirəm. Həm də buna görə istənilən döyüş tapşırığını yerinə yetirməyə tam hazıram. Yetər ki, Ali Baş Komandan əmr versin.

İgid əsgərlərimiz onu da vurğuladılar ki, Ali Baş Komandanı cənab İlham Əliyev olan ordumuz heç vaxt yenilməyəcək. Bəli, bu əsgərlər öz vətənlərində – Azərbaycan torpağında xidmət edirlər. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur. Ancaq bizim torpaqlarda gözü olanlar bu gün layiqli cavablarını alırlar.



***Özünün yüksək döyüş hazırlığına görə dünyanın qüdrətli ordularından heç də geri qalmayan Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusu bu gün istənilən hərbi vəzifəni yerinə yetirmək qüdrətindədir. Bu gün Əlahiddə Ümumqoşun Ordusu istər sülh, istərsə də müharibə vəziyyətində istənilən xarici hərbi müdaxilələrin qarşısının alınmasında buradakı qüvvələrin koordinasiyasının həyata keçirilməsi, regiondankənar digər hərbi birləşmələrin köməyi olmadan müstəqil şəkildə müharibə apara bilən hərbi birləşmə olmaqla muxtar respublikanın təhlükəsizliyində mühüm rol oynayır. Son dövrlər Azərbaycan Silahlı Qüvvələri və onun tərkib hissəsi olan Naxçıvan Əlahiddə Ümumqoşun Ordusu istər hərbi təlimlərdə, istərsə də təcavüzkar düşmənin təxribatlarına qarşı ildırımsürətli cavab zərbələrində öz gücünü, qüdrətini dünyaya nümayiş etdirdi. Sədərək rayonunda ön xətdə yerləşən postlarda gördüklərimiz bir daha bu qənaətimizi gücləndirdi.***

**Rauf ƏLİYEV**

# Əlincəqalanın teymurilərdən müdafiəsinə rəhbərlik etmiş qala rəisləri

***Əlincəqalanın Əmir Teymur qoşunları tərəfindən 14 illik mühasirəsi zamanı qalanın müdafiəsinə bir-birinin ardınca bir neçə qala rəisi rəhbərlik etmişdir. Bu sərkərdələrdən birincisi mühasirənin başlandığı 1387-ci ildən 1390-cı ilin sonlarınadək müdafiəyə rəhbərlik edən Xacə Cövhərdir. Orta əsr qaynaqlarında bəzən Cövhər ağa, Cövhər xadim kimi xatırlanan Xacə Cövhər Əmir Teymur qoşunlarının Əlincəqalanı mühasirəyə aldığı vaxt qalanın kutvalı (rəisi) olmuşdur. O, özünün qəhrəmanlığı, şücaəti, xeyirxahlığı, səxavəti ilə seçilmiş və qala əhli arasında böyük hörmət qazanmışdır. Teymur qoşunlarının Əlincəqalanı mühasirəyə aldığı ilk vaxtlarda qala Xacə Cövhərin rəhbərliyi ilə qəhrəmanlıqla müdafiə olunmuşdur.***



Azərbaycanın feodal hakimləri Teymur qoşunlarının təhlükəsini düzgün qiymətləndirərək ona zərbə vurmaq və irəliləməsinə imkan verməmək məqsədilə Əlincəqalanın müdafiəsinə yaxından kömək edirdilər. Teymur qoşunları ilə qala müdafiəçiləri arasında 1388-1389-cu illərin qışında baş verən döyüşdə Teymur qoşunları qalanın aşağı səngərlərini ələ keçirsələr də, qala müdafiəçiləri Xacə Cövhərin rəhbərliyi ilə qalanın yuxarı hissəsinə çəkilərək müdafiəni davam etdirmişlər. Ancaq bu zaman qalada su ehtiyatı qurtardığı üçün Əmir Teymurla danışığa başlamağa məcbur olmuşlar. Əmir Teymur qalanın təslim olacağını yəqin edib qoşunu qalanın ətəklərinə endirmişdir. Ancaq bu zaman yağan güclü leysan qalanın bütün hovuzlarını su ilə doldurmuşdur. Bunu görən Xacə Cövhər qalanın təslim edilməsi fikrindən əl çəkmiş və müdafiəni davam etdirməyə başlamışdır. Teymur qalanın mühasirəsini daha da gücləndirsə də, müttəfiqlərin zərbəsi ilə geri çəkilməyə məcbur olmuşdur. Çox təəssüf ki, belə qəhrəman bir sərkərdə 11 noyabr 1390-cı ildə, Ramazan bayramı günündə taun xəstəliyindən vəfat etmiş və Əmir Altun onun qaem-məqamı (canişini) olmuşdur.

Xacə Cövhər vəfat etdikdən sonra Əlincəqalanın kutvalı Əmir Altun olmuş və qalanın Teymur qoşunlarından müdafiəsinə rəhbərlik etmişdir. Əmir Altun Xacə Cövhərin ən yaxın silahdaşlarından biri kimi onun tapşırığı ilə bir sıra yürüşlərə rəhbərlik etmişdir. Əməliyyatlara uğurla rəhbərlik edən Əmir Altun cəsarət və qəhrəmanlığı ilə qorxmaz sərkərdə kimi qala müdafiəçiləri arasında böyük hörmət və nüfuz qazanmışdır. Hətta onun Xacə Cövhərlə birlikdə Əlincəqalanın müdafiəsinə rəhbərlik etməsi haqqında fikirlər vardır. Əmir Altun Əlincəqalanın kutvalı olarkən qalada, təxminən, 300 nəfər qorçu (döyüşçü) var idi. Sultan Əhməd Cəlairi mühasirədən əvvəl oğlu Sultan Məlik Tahir başda olmaqla ailəsini, yaxın adamlarını, o cümlədən bir neçə əmirini Əlincəqalada yerləşdirmişdi.

Teymur qoşunlarının qala üzərinə vaxtaşırı hücumları Əmir Altunun rəhbərliyi ilə dəf edilmişdi. Əlincəqalanın strateji-coğrafi mövqeyinə, gizli yollarına bələd olan, hərbi işdən yaxşı baş çıxaran Əmir Altun dəfələrlə qalanın müdafiəsi üçün ölüm-dirim savaşına qalxmışdır. Ancaq Əmir Altunun qala əhli arasında hörmətini, nüfuzunu qısqanclıqla qarşılayan Sultan Məlik Tahir onu sıxışdırdığı üçün onların arasında ciddi ziddiyyət yaranmışdı. Belə bir şəraitdə Teymurun sərkərdələrindən Məhəmməd Dərviş Bərlas 40 min nəfərlik nizami ordu ilə qala üzərinə güclü hücuma keçmişdir. Bu zaman Əmir Altun qala müdafiəçilərindən bir hissəsi ilə ərzaq dalınca getdiyindən qaladan çıxmışdı. Onlar qalaya qayıdarkən qala qapılarının Teymur qoşunları tərəfindən tutulduğunu, mürəkkəb bir vəziyyətin yarandığını görmüşlər. Vəziyyəti düzgün qiymətləndirən Əmir Altun arxadan Teymur qoşunlarına hücum etmiş və onlara ağır zərbə vurmuşdur. Döyüşdə Teymur qoşunları çoxlu itki vermiş, dörd tümən əmirinin ikisi məhv edilmişdir. Ancaq Sultan Məlik Tahirin əmri ilə qala qapılarını öz dəstəsi ilə qalaya daxil olmaq istəyən Əmir Altunun üzünə açmadılar və onu qalaya buraxmadılar. Əmir Altun qalada olmadığı zaman Sultan Məlik Tahir onun qardaşını qətlə yetirmiş, özünün isə qalaya buraxılmaması haqda əmr vermişdi. Bu səbəbdən də Əmir Altun Mərənd şəhərinə getməyə məcbur olmuşdur. Ancaq Mərənd hakimi Əmir Teymura xoş gəlsin deyə, onu həbs etdirmiş və qətlə yetirmişdir. Mənbələrin yazdığına görə, bu hadisələr qalanın müdafiəçilərinə ciddi təsir edir və onların bir qismi Məlik Tahirdən üz döndərərək qalanı tərk edirlər. Nəticədə, qalanın müdafiə qabiliyyəti zəifləyir.

Qala əhli və ətraf kəndlərin əhalisi arasında böyük hörmət və nüfuzu olan Əmir Altun haqqında rəvayətlər də yaranmışdır. Öz qəhrəmanı haqqında rəvayət yaradan Əlincəçay mahalı əhalisi arasında həmin rəvayətlər ("Altunla Zeynəb" və "Zeynəb gölü") indi də yaşamaqdadır.

Əmir Altunun qətlə yetirilməsindən sonra qalanın kutvalı Əmir Seyyid Əhməd Oğulşami olur. Orta əsr qaynaqlarında və epiqrafik abidələrdə Əmir Seyyid Əhməd Oğulşami haqqında müəyyən məlumatlar gəlib çatmışdır. Belə qaynaqlardan biri Əlincəqalanın şərq ətəyində yerləşən və Xanəgah kəndinin əhalisi tərəfindən məscid kimi istifadə edilən türbədə saxlanan kitabədir. Kitabənin mətnindən məlum olur ki, türbə Qaraqoyunlu hökmdarı Cahanşahın zamanında (1435-1467) Əmir Seyyid Əhməd Oğulşaminin oğlu, Sahib əl-Əzəm Hacı Məhəmməd tərəfindən oğlu Əmirxanın şərəfinə inşa etdirilmişdir.

Orta əsr müəllifi, Əmir Teymurun tarixçisi Şərafəddin Əli Yəzdinin Əmir Teymurun həyatına, fəaliyyətinə və yürüşlərinə həsr etdiyi "Zəfərnamə" əsərində də Əmir Seyyid Əhməd Oğulşami haqqında müəyyən məlumatlar vardır. Əsərdən aydın olur ki, Şəki hakimi Sidi Əli Sultan Məlik Tahiri xilas etmək məqsədilə Əlincəyə gəlmişdir. Onlar Əlincə divarlarına çatanda Sultan Məlik Tahir qaladan enmiş və onlara qoşularaq çıxıb getmişdir. Bundan sonra qalanın müdafiəsinə Əmir Seyyid Əhməd Oğulşami rəhbərlik etmişdir.

Tarixçinin verdiyi bu məlumatdan aydın olur ki, kitabədə adı qeyd olunan Əmir Seyyid Əhməd Oğulşami Əlincə qalasının müdafiəsində iştirak edən, bir müddət isə müdafiəyə rəhbərlik edən sərkərdələrdən olmuşdur. Məhz buna görə də o, orta əsrlər zamanı qoşun başçılarına və sərkərdələrə verilən "əmir" titulu daşımışdır.

Adıçəkilən qaynaq bu şəxsiyyətin aqibəti haqqında da dəqiq məlumat verir. Orada qeyd olunur ki, Teymur ordusu Sivas və Şam tərəfə gedəndə Əmirzadə Miranşahın qoşunundan Şeyx Məhəmməd Daruğa və Əmirzadə Şahruxun ləşkərindən Firuzşah göstərişə əsasən Əlincəqalaya getmiş və qalanın mühasirəsini davam etdirmişlər. Həmin vaxt qalada az adam qalmışdı. Bütün çətinliklərə baxmayaraq, qalanın kutvalı (rəisi) Əmir Seyyid Əhməd Oğulşami son ana qədər müqavimət göstərsə də, qala tutulmuş, onun müdafiəsinə rəhbərlik edən Əmir Seyyid Əhməd Oğulşami isə əsir götürülərək Əmir Teymurun hüzuruna göndərilmişdir. Həmin vaxt Bağdadda olan Əmir Teymur Əmir Seyyid Əhməd Oğulşami buraya gətirildikdən sonra onun qətlinə fərman vermişdir. Beləliklə, Əmir Seyyid Əhməd Oğulşami Bağdadda edam edilmişdir. Əlincəqalanın süqutu 1401-ci ildə olduğundan ehtimal etmək olar ki, Əmir Seyyid Əhməd Oğulşami həmin ildə qətlə yetirilmişdir.

Əmir Seyyid Əhməd Oğulşaminin Əlincəqalanın Teymur qoşunları tərəfindən mühasirəsi zamanı qalanın müdafiəsində iştirakına, hətta bir müddət müdafiəyə rəhbərlik etməsinə, oğlu, Qaraqoyunlu dövlət aparatında vəzir vəzifəsini tutan Sahib əl-Əzəm Hacı Məhəmmədin oğlu (Əmir Seyyid Əhməd Oğulşaminin nəvəsi) Əmirxanın Əlincəqalanın şərq ətəyində, Xanəgah kəndində dəfn edilməsinə və onun qəbri üzərində atası tərəfindən möhtəşəm türbə inşa etdirməsinə əsasən ehtimal etmək olar ki, onlar əslən Culfa rayonunun Xanəgah kəndindən olmuşlar.

**Fəxrəddin SƏFƏRLİ**
***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü***

# Qız qalası

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamının icrası zamanı muxtar respublika ərazisində qeydə alınıb pasportlaşdırılan abidələrin tədqiqi bu il də davam etdirilməkdədir. Belə abidələrdən biri də Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Qız qalası abidəsidir.***



*Qız qalası yaşayış yerində qala divarının qalıqları*



*Qız qalası kurqanlarından tapılan boyalı qablar*

Qızqala Oğlanqalanın şimalında, onunla üzbəüz yerləşir. Deyilənə görə, bir vaxtlar Arpaçayın bir qolu Oğlanqala ilə Qızqala arasından axırmış. Oğlanqalada yaşayan hökmdarın oğlu və Qızqalada yaşayan hökmdarın qızı bir-birinə vurulubmuş. Gecələr Oğlanqaladan Qızqalaya bir yol açılarmış, sevgililər bu yolla gəlib Arpaçayın üzərində, ay işığında görüşərmişlər. Onlar and içib əhdü-peyman edirlər. Kim əhdinə xilaf çıxsaymış, odda yanacaqmış. Bir gün oğlan yuxuya qalır, qızın görüşünə gedə bilmir. Ertəsi günü o biri tayda toy səsi eşidir. Öyrənir ki, bu, onun nişanlısının toyudur. Oğlan özünü günahkar hesab edərək bir tonqal yandırıb özünü tonqala atır. Ancaq onun günahı olmadığından odda yanmır, bir ağ daşa çevrilərək qalanın üzərinə düşür.

Arxeoloqların apardığı araşdırmalar zamanı Oğlanqala və Qızqalanın Erkən Dəmir dövründə vahid dövlət halında birləşərək Urartu işğalçılarına qarşı mübarizə apardıqları müəyyən edilmişdir. Azərbaycan-ABŞ birgə arxeoloji ekspedisiyasının araşdırmaları zamanı müəyyən olunmuşdur ki, bu iki qalanın ətrafındakı 487 hektarlıq ərazi müdafiə divarları ilə əhatə olunmuşdur. Bununla belə qədim Şərqin ən güclü quldar dövlətlərindən biri olan Urartu ilə müqayisədə bu, heç də böyük ərazi deyildi. Urartululara qarşı mübarizə aparan və öz müstəqilliklərini qoruyan Oğlanqala və Qızqala sakinlərinin gücü nədə idi? Ötən ilki tədqiqatlar zamanı beynəlxalq arxeoloji ekspedisiyanın əsas məqsədlərindən biri bu suala cavab tapmaq idi. Araşdırmalar zamanı müəyyən edilmişdir ki, Arpaçayın sağ sahilində Qızqala yaxınlığında Dəmir dövrünə aid böyük yaşayış yeri olmuşdur. Bu yaşayış yerinin sahəsi 80 hektara yaxındır. Qızqalanın yaxınlığında yerləşən Erkən Dəmir dövrünə aid Sədərək yaşayış yerinin sahəsi 20 hektar, Xələc yaşayış yerinin sahəsi 5 hektar, Qalacıq yaşayış yerinin sahəsi 10 hektardan artıqdır. Araşdırmalar göstərir ki, Erkən Dəmir dövründə Naxçıvanda güclü tayfa ittifaqları məskunlaşmışdır. Bu tayfalar həmçinin Azərbaycanın Arazdan şimalda yerləşən tayfalar, xüsusilə Göyçə hövzəsindəki tayfalar ilə sıx ittifaqda olmuşlar. Bunun nəticəsidir ki, urartuluların sərhədi Araz çayı ilə məhdudlaşmışdır. Azərbaycanın Arazdan cənubdakı ərazilərində xeyli Urartu qalası olduğu halda, şimalda, xüsusilə də Naxçıvan ərazisində Urartu qalaları yoxdur. Urartu mixi yazılarında da bu haqda heç bir məlumata rast gəlinmir. Urartu dövlətinin tarixini və mədəniyyətini tədqiq edən B.B.Piotrovski demişdir ki, əgər mixi yazılar qonşular haqqında susursa, bu, sərhədlərdə gedən ağır döyüşlərdən və məğlubiyyətdən xəbər verir.

Bu haqda Naxçıvan tarixi çoxcildliyinin I cildində Urartu hökmdarı II Argiştinin Sisian yaxınlığında tapılmış kitabəsi haqqında belə məlumat verilir: "Mənim qarşıma ...Etiuni ölkəsinin çarı gəldi, ölkəsinin vergisini mənə verdi..." Kitabənin mətni Göyçə gölü hövzəsində yaşayan Etiuni tayfa birliyinin Naxçıvan yaxınlığında yerləşdiyinə işarə edir və bu konfederasiyanın böyük ərazini əhatə etdiyini təsdiq edir. Kitabənin mətni həmçinin Etiuni konfederasiyasına daxil olan tayfaların xərac verməklə işğaldan yaxa qurtardığını, həmçinin onların urartululardan nisbi asılılığını göstərir".

Ötən il Qızqalada aparılan tədqiqatlar Cənubi Qafqaz və Yaxın Şərq tarixinin bir sıra qaranlıq məsələlərinə aydınlıq gətirmişdir. Keçən il aparılan araşdırmalar zamanı Qızqalada böyük çoxtəbəqəli yaşayış yerinin olduğu müəyyən edilmişdir. Hazırda yaşayış yerinin Orta Tunc dövrü təbəqəsi tədqiq edilməkdədir. Orta Tunc dövrünə aid mədəni təbəqənin qalınlığı 2 metrdən artıqdır. Məlum olduğu kimi, Cənubi Qafqazın bir sıra regionlarındakı yaşayış yerlərində Orta Tunc dövrü təbəqəsi yoxdur. Orta Tunc dövrü təbəqəsinə Şərqi Anadolu abidələrində də rast gəlinməmişdir. Orta Tunc dövrünün yaşayış yerləri başlıca olaraq Naxçıvanda və Araz çayından cənubdakı ərazidədir. Bu isə Orta Tunc dövrünə aid Boyalı qablar mədəniyyətinin Naxçıvanda formalaşdığını göstərir.

Tədqiqat işləri həmçinin yaşayış yerinin yaxınlığında yerləşən nekropolda da davam etdirilməkdədir. Nekropoldakı kurqanların tədqiqi zamanı Boyalı qablar mədəniyyətinin erkən mərhələsinə aid maddi-mədəniyyət nümunələri aşkara çıxarılmışdır. Tədqiqat zamanı ortaya çıxan maraqlı məqamlardan biri də qəbirlərdə insan skeletinin aşkar olunmasıdır. Məlum olduğu kimi, Cənubi Qafqazda Orta Tunc dövrü qəbirlərindən insan skeleti aşkar olunmadığından bəzi tədqiqatçılar bu mədəniyyəti hind-arilərə aid etməyə cəhd etmişlər. Aşkar olunan yeni faktlar bu nəzəriyyənin tərəfdarlarına güclü zərbə olmaqla, Naxçıvanda formalaşan Orta Tunc dövrü mədəniyyətləri arasındakı varislik əlaqələrini müəyyən etməyə imkan verir.

Tədqiqatlar zamanı yeni aşkar olunan faktlardan biri də indiki Ermənistan ərazisində yayılan "Təzəkənd mədəniyyəti" ilə bağlıdır. Özünəməxsus keramika məmulatı ilə fərqlənən bu mədəniyyətin adını ermənilər dəyişdirərək "Karmirberd mədəniyyəti" adlandırmışlar. Lakin Yaycı nekropolundan və ötən il tədqiq edilən kurqanlardan tapılan boyalı qablar bu mədəniyyətin Naxçıvanda yaşayan tayfalarla bağlı olduğunu bir daha təsdiq edir. Şübhəsiz ki, gələcək tədqiqatlar bu məsələni daha da aydınlaşdırmağa imkan verəcəkdir.

*Qalatipli yaşayış yerləri, oturaq əkinçilik mədəniyyətinin fasiləsizliyi və rəngarəngliyi ilə fərqlənən Naxçıvanın Orta Tunc dövrü mədəniyyəti dünya alimlərinin böyük marağına səbəb olmuşdur. Bu nailiyyətlər muxtar respublikada tariximizə, tarixi abidələrimizə və mədəni irsimizə diqqət və qayğının sayəsində əldə edilmişdir.*

**Vəli BAXŞƏLİYEV**
**AMEA-nın müxbir üzvü**

# Bir bayram istəyirəm

Bir bayram istəyirəm bayramlara tac olsun,
Bütün ağrı-acıma, dərdimə əlac olsun.
O bayramda nə kasıb, nə yoxsul, nə ac olsun,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Dalğalansın bayrağım Kəlbəcərdə, Şuşada,
Xına yaxım əlimə, torpağa da, daşa da,
Sevinc qatım gözümdən seltək axan yaşa da,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Üzünə baxa bilim daşımın, torpağımın,
Qanını yuya bilim gülümün, yarpağımın,
Şəfəqinə bürünüm üçrəngli bayrağımın,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Görüm ürəkdən gülüb-ağlamaq necə olur,
Qara açıb, qırmızı bağlamaq necə olur,
Düşmən bağrı çatladıb, dağlamaq necə olur,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

İstəmirəm torpağım əllərdə girov olsun,
İştahı qaya dələn düşmənlərə ov olsun.
İstəyirəm vətənim para yox, bütöv olsun,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Göy üzü çadırımız, Günəş bayrağımızsa,
Gündoğanla Günbatan geniş torpağımızsa,
Nə durub gözləyirik Tanrı dayağımızsa,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Nə durub gözləyirsən, ey yurdun mərd övladı,
Gözlədin Qıratların söndü şimşək qanadı,
Bəsdir bu qədər zaman səbrimizi sınadı,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Dəmir zireh geyirəm bədənimə, əynimə,
Türkoğlu türkəm, mənim qorxu gəlməz eynimə.
Qələbə kəlməsini həkk etmişəm beynimə,
Olsun Hünər bayramım, olsun Zəfər bayramım.

Ey Ali Baş Komandan, ver əmrini hazıram,
Düşmən bağrın çatladıb, düşmən qəbrin qazıram,
Bir günü də süngümlə tariximə yazıram,
Olsun Hünər, Qələbə, olsun Zəfər bayramım!

Asim YADİGAR




## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Agentliyi üzrə 2016-cı ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Şahbuz rayonu | 558 | 33,5 | 33,6 | 100,3 |
| 2. | Ordubad rayonu | 1246 | 74,8 | 75,0 | 100,3 |
| 3. | Kəngərli rayonu | 674 | 40,4 | 40,5 | 100,2 |
| 4. | Culfa rayonu | 1073 | 64,4 | 64,5 | 100,2 |
| 5. | Babək rayonu | 1883 | 113,0 | 113,1 | 100,1 |
| 6. | Naxçıvan şəhəri | 3440 | 206,4 | 206,4 | 100,0 |
| 7. | Şərur rayonu | 1845 | 110,7 | 110,7 | 100,0 |
| 8. | Sədərək rayonu | 385 | 23,1 | 23,1 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14837 | 890,2 | 890,2 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25941** | **1556,5** | **1557,1** | **100,0** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 941 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 556 min 500 manat olmuş, cəmi 1 milyon 557 min 100 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan şəhər məktəblərində yaz mövsümünün tibbi müayinələri başa çatıb

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən şəhər məktəblərində mart ayının əvvəlindən başlanılmış tibbi müayinələr başa çatdırılıb. Mart ayı ərzində Naxçıvan şəhərinin 20 tam orta məktəbində 10 min 699 şagird tibbi yoxlamadan keçirilib ki, bu da şəhər məktəblilərinin 98 faizini təşkil edir. Müayinələr nəticəsində 1201 oftalmoloji, 288 LOR, 307 nevroloji, 38 cərrahi, 30 dəri-zöhrəvi, 268 endokrinoloji, 1183 stomatoloji, 166 pediatrik və digər xəstəliyə meyilli uşaq qeydə alınıb.

Aparılan müayinələr bəzi nəticələr çıxarmağa imkan verib. Belə ki, oftalmoloji müayinələr nəticəsində şagirdlər arasında ən çox miopiya (yaxındangörmə), stomatoloji müayinələrdə ortodentik, digər ixtisasyönümlü müayinələrdə bəzi şagirdlərdə nitq qüsurları, konstisional piylənmə, xroniki tonzillit, adenoidlər, burun çəpərində əyriliklər, revmatizm xəstəlikləri aşkar olunub.

Əlbəttə, bunlar hələ ilkin tibbi müayinələrin nəticələrini əks etdirir. Əvvəlki illərdə olduğu kimi, həmin şagirdlər dispanser qeydiyyatına götürülərək Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunur, daha ətraflı və dərin müayinədən keçirilir, xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil olunur. Bütün bunlar xəstəliklərin vaxtında müayinə və müalicəsi üçün çox faydalıdır.

Muxtar respublikanın rayonlarında isə şagirdlərin tibbi müayinələri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayonunun Gümüşlü kənd sakini Vəliyev Sabir Məmməd oğlunun adına olan JN-1A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 263